## Uçot dərəcəsinin endirilməsi iqtisadiyyatın kreditləşməsinə təkan verəcək

*Azərbaycan Banklar Assosiasiyasının sədri Eldar İsmayılov:*
*«Bu addım gələcəkdə problemli kreditlərin də azalmasına səbəb olacaq».*

Daxili və xarici bazar konyunkturunu nəzərə almaqla zevik pul siyasəti yürüdən Mərkəzi Bank (MB) 2012-ci il dekabr ayının 10-dan etibarən uzot dərəcəsinin 5,25%-dən 5%-ə endirilməsi barədə qərar qəbul edib. Respublikada inflyasiyanın optimal səviyyədə olması nəzərə alınmaqla qəbul edilmiş bu qərar, ilk növbədə, faiz dərəcələrinin azaldılmasına şərait yaradılmasına və bu yolla qeyri-neft sektorunda iqtisadi artımın dəstəklənməsinə hesablanıb.

***Makroiqtisadi dayanıqlıq təmin olunub***

MB-nin açıqlamasında bildirilir ki, 2012-ci ilin ötən dövründə ölkə iqtisadiyyatının və ixracın şaxələnməsi, iqtisadi rifahın yüksəlməsi və makroiqtisadi dayanıqlığın güclənməsi prosesi daha da sürətlənib. Qeyri-neft iqtisadiyyatı cari ilin on ayında 10,4% artaraq iqtisadi artımın başlıca amilinə çevrilib. İqtisadi artım və məşğulluğa həm daxili, həm də xarici tələb müsbət təsir göstərib. Bütün bunları nəzərə alan MB bu il üçün bəyan etdiyi pul siyasəti istiqamətlərinə uyğun olaraq ölkədə qiymətlərin və maliyyə sabitliyinin qorunmasına yönəlmiş fəaliyyətini davam etdirib: «Bu mandatın daha effektiv yerinə yetirilməsi üçün pul siyasəti və makroprudensial siyasət çərçivələri təkmilləşməkdə davam etmişdir. Manatın məzənnəsinin sabitliyi qorunmuş, pul kütləsi inflyasiya hədəfinə uyğun templə artmışdır. Ölkədə inflyasiya birrəqəmli səviyyədə qalmış, orta illik inflyasiya tempi (1,3%) tərəfdaş ölkələrdən əhəmiyyətli dərəcədə aşağı olmuşdur. Bu şəraitdə kreditlər üzrə orta faiz dərəcələrində azalma meyilləri müşahidə olunmuşdur».

***Banklara likvidlik dəstəyi***

Uçot dərəcələrini Mərkəzi Bankın mütəmadi olaraq artırması və ya azaltması ölkədə makroiqtisadi durumun tənzimlənməsi, inflyasiya meyillərinin qarşısının alınması, banklara likvidlik dəstəyinin göstərilməsi, manatın dollara nisbətdə möhkəmlənməsinin qarşısının alınması baxımından vacib əhəmiyyətə malikdir. Uçot dərəcəsinin dəyişilməsi bankarın kredit siyasətinə birbaşa təsir göstərən amillərdəndir. Xatırlatmaq lazımdır ki, qlobal böhranın pik nöqtəyə çatdığı 2008-2010-cu illərdə Mərkəzi Bank məhz uçot dərəcələrini endirməklə ölkə banklarına 2 milyard manata yaxın likvidlik dəstəyi göstərmiş, nəticədə bank sektoru böhrandan xilas olmuş, manatın devolvasiyası təhlükəsi aradan qalxmışdı. Yəni MB likvidlik probleminin aradan qaldırılmasına kommersiya bankları üçün maliyyə vəsaitlərini ucuzlaşdırmaqla, habelə ehtiyatların azaldılması siyasəti yürütməklə nail oldu. 2008-ci ilin oktyabrından MB-nin uçot dərəcəsi 15%-dən 2%-ə, məcburi ehtiyat normaları 12%-dən 0,5%-ə endirildi. Azərbaycan banklarının beynəlxalq donorlardan daha çox vəsait cəlb etdikləri nəzərə alınaraq, bu sahədə tənzimləməni gücləndirmək üçün 0,5%-lik məcburi ehtiyatın yaradılması qərara alındı. Həyata keçirilən preventiv tədbirlər nəticəsində respublika bankları böhranın ən şiddətli mərhələsində belə, likvidlik problemi ilə bağlı istehlak və biznes kreditlərinin verilməsi prosesini dayandırmadılar.

***Kreditlərin ucuzlaşdırılmasına yönəlmiş addım***

İqtisadçı ekspertlərin fikrincə, MB-nin uçot dərəcələrini aşağı salmaqla bağlı qərarı ölkə iqtisadiyyatının sabitləşmə mərhələsində olduğunu göstərir və inflyasiyanın normal səviyyəsinə dəlalət edir. Azərbaycan Banklar Assosiasiyasının (ABA) sədri, iqtisadçı ekspert Eldar İsmayılov qəzetimizə açıqlamasında MB-nin uçot dərəcəsinin azaldılması ilə bağlı məlum qərarını iqtisadi inkişafın stimullaşdırılması tədbirlərinin davamı kimi şərh edib: «İqtisadiyyat canlı orqanizmdir və onu inkişaf etdirmək üçün aidiyyəti dövlət strukturları ilə yanaşı, Mərkəzi Bank da zəruri tədbirlər həyata keçirir. İqtisadiyyatın inkişafı və sabitliyi isə, ilk növbədə, bank sektorunun pozitiv fəaliyyətindən asılıdır. Bu mənada, uçot dərəcələrinin azaldılması ilin sonunda ölkədə makroiqtisadi vəziyyətin hərtərəfli təhlil edilməsi nəticəsində qəbul olunmuş obyektiv qərardır. Yəqin ki, Mərkəzi Bankın ekspertləri həm də dünya iqtisadiyyatının maliyyə-kredit sektorunun vəziyyətini öyrəniblər, müəyyən uzlaşmalar aparıblar».

Eldar İsmayılov bildirdi ki, uçot dərəcələrinin qaldırılması, adətən, inflyasiyaya qarşı qabaqlayıcı tədbir kimi nəzərdə tutulur. Hazırda isə ölkədə inflyasiyanın optimal səviyyədə olması uçot dərəcələrini aşağı salmaqla bankların istehlak və biznes kreditlərinin faiz dərəcələrinin endirilməsinə imkan yaradır: «Qonşu Gürcüstanda bankların təklif etdikləri kreditlər Azərbaycanla müqayisədə təxminən 4-5% aşağıdır. Güman etmək olar ki, MB-nin uçot dərəcələrinin aşağı salınması ilə bağlı qərarı həm də kreditlərə görə nisbətən yüksək faiz dərəcələrinin aşağı salınmasına müsbət təsirini göstərəcək. Bankların faiz dərəcələrinin yüksək olması son nəticədə problemli kreditlərin yaranmasına gətirib çıxarır. Uçot dərəcələrinin aşağı salınmasından sonra, çox güman ki, bir çox banklar kredit faizlərini nisbətən aşağı salmaq barədə düşünəcəklər. Kreditin faizi nə qədər az olarsa, problemli kreditlərin də sayı gələcəkdə bir o qədər azalar. Xüsusən də biznes kreditlərinin faizlərinin aşağı salınması ölkə iqtisadiyyatındakı pozitiv meyillərin gücləndirilməsi baxımından vacib addımdır».

***Bir sıra banklar birləşməli olacaqlar***

Uçot dərəcələrinin aşağı salınması banklara likvidlik dəstəyi olmaqla, həm də onların nizamnamə kapitalını artırmalarına dolayı dəstək xarakteri daşıyır. Xatırladaq ki, fəaliyyətdə olan bankların məcmu kapitalının, habelə yeni yaradılan banklar üçün nizamnamə kapitalının minimumuna tətbiq olunan tələb MB İdarə Heyətinin qərarı ilə 2014-cü il yanvarın 1-dən 10 milyon manatdan 50 milyon manata qaldırılacaq. MB hesab edir ki, bu addım ölkə banklarının kapital bazasının gücləndirilməsi, beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsi, bank sektoruna etimadın daha da artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Banklar Assosiasiyasının sədri Eldar İsmayılova görə, azad rəqabət şəraitində bu tələbə riayət edə bilməyən bəzi bankların birləşməsi labud olacaq: «Əsas məsələ bankların böyük və kiçik olması deyil, şəffaflığı təmin etməsi, işini düzgün qurmasıdır. Bankların nizamnamə kapitalının artırılması da ölkə iqtisadiyyatının dinamik inkişafı, ümumi daxili məhsulun artım tempi ilə bağlıdır. Ölkə banklarının əksəriyyətinin nizamnamə kapitallarını 50 milyon manata qaldırmaq imkanları var. Cəmi 4-5 bank var ki, bu addımı atmaq onlara müəyyən çətinlik yaradacaq. MB-də bank rəhbərlərinin iştirakı ilə keçirilmiş toplantıda maliyyə çətinliyi olan belə bankların birləşməsinin məqsədəuyğun olduğu vurğulanıb və MB bu işə zəruri dəstək verməyə hazır olduğunu bəyan edib. Bazar iqtisadiyyatının tələbi belədir: ya inkişaf etməli, artmalısan, ya da oyundan çıxmalısan».

Samir MUSTAFAYEV